



# Elin igid oğlu

**Qarabağ müharibəsində Azərbaycanın ərazi bütövlüyü və azadlığı uğrunda tarix yazıb şəhidlik zirvəsinə ucalan Vətən oğulları həmişə xalqımızın ürəyində yaşayacaq. 1997-ci ildə Lerik rayonunun Orand kəndində dünyaya göz açan Natiq Balamirzə oğlu Mirhüseynov da məhz "Vətən yaşasın", - deyə canından keçən belə igid oğullardan biridir.**

Natiq orta təhsilini başa vurub, 2015-ci ildə Bakı şəhəri Hərbi Hava Qüvvələrində xidmət edir. Fəallığına, nümunəvi davranışına, vətənpərvərliyinə görə daima adı öndə çəkilir. Hərbi xidmətdə olduğu zaman dəfələrlə komandirləri tərəfindən valideynlərinə təşəkkür məktubları yazılır.

Natiq 2017-ci ildə Vətən qarşısında borcunu alnıaçıq yerinə yetirib doğma kəndinə qayıdır. 2018-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı" kursunda hərbin sirlərini mükəmməl öyrənir. Bir müddət Lənkəran şəhərində Hərbi Polis kimi Post Patrul komandiri vəzifəsində çalışır. Əsl vətəndaş, layiqli vətənpərvər olaraq xeyirxah əməllər görməklə bütün işgüzar fəaliyyətini xalqın, dövlətinin mənafeyinə yönəldir. Əhatə olunduğu cəmiyyətdə yurdunu, millətini məhəbbətlə sevən bir Vətən sevdalısı kimi hörmət qazanır.

Müharibənin başladığı ilk gündən gizir Natiq Mirhüseynov özünün 25 nəfərdən ibarət tağımı ilə döyüş bölgəsinə birinci yola düşənlərin sırasında olur. Müharibənin ilk günündən Hadrut, Cəbrayıl, Daşaltı istiqamətində gedən döyüşlərdə böyük şücaət göstərir, ölümdən qorxmadan Qarabağın hər qarışı uğrunda gedən ağır döyüşlərdə düşmənə qan uddurur.

Təəssüf ki, Vətənin igid oğlu Cəbrayıldan Daşaltıya gedən zaman yolda minaya düşür və başından ağır zərdə alır. Onu dərhal Füzuli Rayon Hospitalına gətirirlər və orada əməliyyat olunur. Səhəri gün Silahlı Qüvvələrin Baş Klinik Hospitalına çatdırılır. 37 gün komada yatır. 30 yanvar 2021-ci ildə həkimlərin səyinə baxmayaraq, qəhrəman gizir Natiq Mirhüseynovun ürəyi dayanır. O, şəhidlik zirvəsinə ucalır, özünə əbədi ölməzlik qazanır.

**Zəfər ORUCOĞLU.**